## Qusarda fəaliyyət göstərən bazarda aşkarlanan nöqsanlara dair məlumat

## (23 aprel 2024)

Qusar şəhəri, Ç.Qurbanov küçəsində fəaliyyət göstərən, “Riad” firmasına məxsus bazarda Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları tərəfindən planlı yoxlama keçirilib.

Baxış zamanı bazarda sanitar-gigiyenik və sanitar-texniki vəziyyətin qənaətbəxş olmadığı, qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinin pozulduğu aşkar edilib. Belə ki, bazarda fəaliyyət göstərən ticarət obyektlərinin qida məhsullarının saxlanması və satışı üzrə tələblərə uyğun müvafiq avadanlıqlarla təmin edilmədiyi, üzərində etiket məlumatları olmayan müxtəlif çeşiddə məhsulların satışının həyata keçirildiyi, xüsusi risk qrupuna aid məhsulların temperatur rejiminə əməl olunmadığı, mal qonşuluğu prinsipinin pozulduğu, işçilərin ilkin və dövri tibbi müayinədən keçmədiyi, qida ilə təmasda olan səthlərin asan təmizlənə və dezinfeksiya edilə bilən materialdan təşkil edilmədiyi və digər nöqsanlar müəyyən olunub.

Aşkar olunmuş nöqsanlarla bağlı qanunvericiliyə uyğun olaraq müəssisə rəhbəri barəsində inzibati protokol tərtib olunub. Bazarda toyuq, balıq, süd və süd məhsullarının satışı sahələrində işlərin görülməsinin, xidmətlərin göstərilməsinin və satışının dayandırılması, eyni zamanda işçi heyətin üzvlərinin kənarlaşdırılması barədə məhdudlaşdırıcı qərar qəbul edilib.